

# "EDEMƏ QAYIDIŞ"

**hekayə**

*Müzahim İSMAYILZADƏ*

Hər şey ona şirin və cazibədar görünürdü. Əvvəllər adi saydığı, heç fikir vermədiyi əşyalar gözündə böyüyür, müqəddəsləşir, ürəyini kövrəldir, gözlərində yaş gilələri toplanırdı. Ağlamaqdan özünü güclə saxlayırdı. Qıraqdan baxan ona nə deyərdi? Cavan oğlan, durduğu yerdə göz yaşları axıdır. Görən dəlidirmi? Ancaq vağzalda buna sən deyən fikir verən yoxdu. Hamı tələsir: biri başqa ölkəyə, şəhərə, kəndə gedir, biri kimisə qarşılayır, ona görə belə hallar çox olur və sevincdən, ya kədərdən ağlayana təbii baxır, ondan ürək yanğısı ilə soruşmurlar ki, ay Allah bəndəsi, dərdin nədir, niyə ağlayırsan? De, bəlkə sənə bir köməyimiz dəydi. Vağzallar ayrılıq yuvasıdır. Avtobusla, qatarla çox səfərdə olmuşdu, təyyarə ilə ilk dəfəydi ki, uçacaqdı. Ancaq fərqi yox idi, vağzal elə vağzaldır, istər avtobus vağzalı olsun, istər dəmir yol vağzalı, istərsə də aeroport - əzizini səndən, səni əzizindən alıb uzaqlara aparır. Bir azdan o da mavi səmalara qalxıb uzaqlara gedəcək. Bəlkə də biryolluq. Kirayədə yaşadığı evin sahibi gözəl insandı, onu aeroporta kimi gətirdi. İşi olduğundan gözləyə bilmədi. Tez gəlib, bir azdan minik başlayacaq. Yükü ağır deyil, cəmi iyirmi kilodur. Artıq çəkiyə pul ödəməlidir. İstəmir. Pal-paltarları və vacib saydığı kitablardır. Qalanını evdə saxlayıb. Ev sahibi onları saxlamağa söz verib. Ya qismət! Qayıtsa... Bilmirdi qayıdacaq, ya yox? Qayıdacaqdısa, nə vaxt? O kitabları nə qədər oxumuşdu? Əzbərdən bilirdi, ancaq bildikləri köməyinə gəlmədi. Bildikləri əsas deyilmiş.

- Deməli, getməyi qərarlaşdırdın.
- Hə.
- Son qərarın?
- Getmək.
- Bəlkə bir il də qalasan, hazırlaşasan. Bəlkə hər şey sən istədiyin kimi oldu?
- Mən özümə söz vermişəm ki, sadəlövh olmayım, boş xəyallarla yaşamayım.
- Boş niyə olur ki?
- Bu qədər bal toplamışdım. 103 bal. Heç kim bu nəticəni göstərməmişdi. Həm də mən özüm hazırlaşmışdım, hazırlığa getməmişdim. 12 bal hara, 103 bal hara? 12 bal toplayan guya müsahibədə məndən üstün olub? Hansı müsahibədə? Sən o müsahibənin necə aparıldığından xəbərdarsan? Mən yüz faizli nəticə göstərsəm də, xeyri yoxdur.
- Nə işlə məşğul olacaqsan?
- Hər halda, ürəyim istəməyən işlə!
- Ürəyin istəməyən iş burda da var.
- Burda bacarmaram.
- Bəs orda necə?
- Ona görə gedirəm.
- İncimisən.
- Heç kimdən inciməmişəm. Uşaq deyiləm ki? İnciməli yeganə adam varsa, o da özüməm!
- O niyə?
- Həyat təkcə kitablarda yazılanları öyrənməkdən ibarət deyilmiş. Başqa parametrlərə sahib olmaq lazımdı, onları da gərək bacarasan.
- Az bal toplayan, lakin dövlət qulluğunda məsul vəzifə tutanlar səndən güclüdür?
- Əlbəttə ki! Özü də qat-qat!
- Sən belə düşünürsən?
- Fakt faktlığında qalır.
- Sənin zəif cəhətin hansılardır?
- ...
- Bəs öz gücünü dəyərləndirmirsən?
- İndi çətinlik çəkərəm. Qaliblər mühakimə olunmurlar.
- Uduzanlar işə səhvlərindən nəticə çıxarmalı, revanş qazanmalıdırlar.
- Mən elə səhvlərimi saf-çürük etməyə, revanş qazanmaq üçün güc toplamağa gedirəm.
- Öz torpağını əkib-becərməyi bəyənməyənlər hətta donuza baxmağı daha üstün tuturlar.
- Puldan heç vaxt iy gəlmir

...Gözləyənlər çox idi, getdikcə sıraları artırdı. Lövhədə üç şəhərdən - Nyu-Yorkdan, Amsterdamdan və Londondan gələn təyyarələrin eniş vaxtları qeyd olunmuş, onun uçduğu təyyarəyə isə minik başlamışdı. Həyət darvazalarına bənzər qapı gəlişgediş zamanı öz-özünə açılırdı. Stüardessaların laqeyd və təbəssümlü baxışları qapıları açdı və örtdü. Oturanlar qapıya tərəf toplaşdılar, hətta basabas yarandı. Xaricilər boyunlarından asılmış yöndəmsiz karton parçalarına yazılmış telefon nömrələrinə baxıb qarşılayanları müəyyənləşdirir, arabadakı yüklərini onlara təhvil verir, kiməsə zəng çalıb danışır, çox güman ki, ünvana yetişdiklərini bildirirdilər. Əlləri çiçəkli topa isə gözləyirdi. Uzaqdan arıq, hündürboy, eynəkli, sarışın qızı görəndə hamısı qışqırdı. Onu növbə ilə öpdülər, gülləri qucağına yığdılar, qollarına girib apardılar. Şüşədən qara, ağ rəngli hündür maşınlara minib yox oldular. Aeroporta sakitlik çökdü. Sonuncu gələn bəstəboy, qaraşın oğlan heç ətrafa boylanmadı, birbaşa çıxışa addımladı.

Bu tale onu da gözləyirdi. İndi gedəcəyi şəhərdə onu qarşılayan olmayacaqdı. Nə vaxtsa qayıdanda da eləcə...

...Çingiz hərbi xidmətini başa vurandan sonra kəndə qayıtdı. Onda iki qonşu, sinif yoldaşı, dost yemişan ağacının kölgəsində oturub o ki var içdilər, keçmiş xatirələrini dilləndirdilər. Zəif oxuyurdu. O, həmişə ona dəstək olur, köməklik edirdi. Geyim-keçimi də yox idi. Atası çoban idi, ilin beş-on gününü evdə olmurdu. Ailələri də böyük idi. Elə olurdu ki, köynəyini, ayaqqabısını, corabını ona geyindirirdi.

- Sən mənə çox əziz bir insan olmusan. Heç doğma qardaş sənin kimi olmayıb. Sənin kimisinə rast gəlməmişəm. Sənin sağlığına içək. - İçəndən sonra ürəyini açdı. - Mən daha buralarda yaşayammaram. Qayıdacam.
- Dəli olmusan, vallah! Atan-anan...
- Pullarını göndərəcəm. Qardaşlarım da var, bacılarım da. Mənimki onlarnan tutmaz.
- Ağıllı ol!
- Gedəcəm. Tək sənə deyirəm. Orda evlənmişəm də. Şəhərin imkanlı adamının qızıdı. Burda nağayracam? Savadım yox, əlimdən gələn bir iş yox, ev yox, pul yox.
- Qazanarsan, işləyərsən. Sən çox bacarıqlı, təmiz oğlansan. - Nə işləyib nə qazanacam? Hazır Allah mənə gül kimi qapı açıb. İşində ol...

Sonra, Çingiz əsgərlik həyatından, Selinlə tanışlığından, görüşlərindən, atasının onu döyməsindən, barışmaqlarından, kəbin kəsdirməklərindən danışdı. O gecə, yemişan ağacının altında, aylı-ulduzlu gecədə Çingizin sifətindəki ağ işığı, gözlərindəki təbəssümü görəndə sevindi və ona elə gəldi ki, Çingizə zurna-balabanla toy elədi, Alxan müəllimin qızı Elmiranın "get axtar tayını tap", "qoyununu otar" atmacalarını kürəklə kürüyüb yellərə atdı. İndi Çingiz Elmiradan söz düşəndə bir anlıq fikrə getdi və "getsin qoyununu otarsın" sözlərini cavab kimi qaytardı.

Bir də anası Gülənbər xalanın dəfnində kənddə görüşdülər. Çox həlim xasiyyətli, saf, təmiz, bacarıqlı qadın idi. Əlindən çox çörək alıb yemişdi. Rəhmətə getdiyini eşidən kimi kəndə gəldi. Yenə o yemişan ağacının altında oturmuşdular.

- Çox dəyişmisən, Çingiz. Mən çox şadam.
- Sən də dəyişmisən, ancaq mənfiyə doğru. Gözlərindən kədər yağır. Sən belə deyildin! Alnının qırışlarına bax! Sənin nə yaşındı? Hələ heç evlənməmisən. Heç evin də yoxdu.
- Narahat olma, düzələr.
- Nə vaxt. Əlli yaşında? Ondan sonra ev nəyinə gərəkdi, ya ailəni neynirsən? Meyvəni gərək vaxtında yeyəsən - kal olanda dodaq büzüşdürür, vaxtı keçəndə adamı zəhərləyir...

...Dekabr ayı idi. Baxdıq ki, qollu-budaqlı alma ağacının başında sapsarı, iri bir alma qalıb. Onu dərib yarı böldük və yedik. İkimiz də az qala zəhərlənib ölmüşdük...

- Sənə nə kömək edə bilərəm?
- Sağlığın.
- Bilirsən ki, heç nə elə-belə deyil. İşinə, vəzifənə nə lazımdı? Yox ey, nə qədər lazımdı?
- Heç nə qədər.
- Sən harda işləyirsən? Nə işin sahibisən?
- Mən heç nəyin sahibi deyiləm.
- Bə, a qıvlasız, burda papağı nə günə yandırırsan? Mən elə sənə deyəcəkdim ki, gəl, mənə arxa, dayaq ol. Necə ki, həmişə olmusan. İnandığın, ümid olduğum adam yoxdu. Ticarət mərkəzim var, univermaq, mağazalar... Məndə sən deyən o qabiliyyət yoxdu. Aldadırlar. Burdan necə nəfər aparmışdın ora. Beş, uzağı altı aydan sonra arağa qurşanır, bir də arvadbazlıq edirlər. Mənə sən lazımsan. Çox yüksək məbləğdə maaşın olacaq, evin-eşiyin. Təki gəl... vallah, o qədər alimləri, diplomluları görmüşəm ki, hamısı orda bazardadı. Sən ofisdə oturacaqsan, əlin quru, ayağın quru. Ancaq ciddi nəzarət, tələbkarlıq və təmizlik. Onların üçü də səndə var... Qayda-qanunlara riayət də öz yerində.

Çingizə zəng çatmırdı. Aeroportda ayrılanda dedi ki, ailəsi ilə Avstraliyaya istirahətə gedəcək. Yəqin indi ordadı....

- Bəlkə qayıdasan? Hələ gec deyil.

Bu səs onun beynini ovdu. Əşyalarının yanında neçə dəfə dairə vurdu. Qara, iri sumkaya yığdığı kitablar ilan kimi ağızlarını açıb ona tərəf fısıldadılar.

- Fıss... fıss... - Kafe böyürdə idi. Qıza yaxınlaşıb yüz əlli qram araq istədi, bir dilim də limon. Stəkanı birnəfəsə başına çəkib limon dilimini ağzına atdı.

Nazirə yazdığı şikayət ərizəsinin cavabı gözləri önündə dayandı. "...dövlət qulluğuna imtahanlar şəffaf şəkildə aparılmış, ən layiqlilər seçilmişlər. Ona görə də sizin şikayətinizin heç bir hüquqi əsası yoxdur..."

Əşyalar elevatorla sürünüb getdi, özü ciblərini boşaldıb cihazın altından keçdi, qollarını yana açdı, cavan oğlan əlindəki qara çubuğu başdan-ayağa sürütlədi.

- On kiloqram beş yüz qram artıq yükünüz var. Ya ödəyin, ya da lazımsız şeyləri atın.
- Yük nə qədər olmalıdır ki?
- On kiloqram.
- Bəs...
- On gündür ki, belə qanun çıxıb. Kassaya yüz əlli manat ödəyin.

Çaş-baş qaldı, əşyalara bir də baxdı.

- Bu qara sumkadakı nədir? Çox ağırdır! - Oğlan sanki ona kömək etmək istəyirdi.
- Kitab.
- Nə? Kitab? Nə kitablarıdı?
- Kitablardı də.
- Qardaşş, camahat kitabı o yandan gətirir, sənsə...
- Burda saxlama kamerası varmı?
- Vaar. Odey. - Əli ilə sol tərəfi uzatdı.

Kitab dolu sumkanı götürüb o istiqamətə üz tutdu, ağzını açıb "Edemə qayıdış" kitablarının iki cildini götürdü, qalanını kameraya qoyub ağzını örtdü, neçə dənəsə "0" rəqəmlərini yığıb qayıtdı.

- Bunu niyə saxladın?
- Bu çox qiymətli kitabdır. - Oğlan kitabları alıb şəklinə baxdı və soruşdu.
- Nədən danışır?
- Yaşamaq uğrunda mübarizədən - məğlubiyyətdən və qələbədən.

* * *

Sarı xəttin yanında dayanmışdılar. Bu xətdən o yana artıq başqa dövlətin ərazisi sayılırdı. Xətti tapdalamaq olmazdı. Bir azdan qapı açıldı və avtobuslara mindilər. Təyyarə onları gözləyirdi.


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat ... "AZƏRBAYCAN" nəşri...
Telefon: 538-05-50, 538-51-31, 534-...
adaletqezeti@...
adaletqezeti@mail.ru, a...
Qəzetdə "Olaylar" və APA İA-nın m...